# 8 Mart—Beynəlxalq Qadınlar Günü qarşısında

***“Qadın cəmiyyətin ən hörmətli üzvüdür. Hamı qadının qarşısında baş əyməlidir. Mən bütün həyatım boyu qadına hörmət etmişəm və cəmiyyətimizi, millətimizi, xalqımızı qadına hörmət etməyə dəvət etmişəm”.***

**(Heydər Əliyev).**

Bu gün Azərbaycan Respublikasının müstəqilliyinin qorunması, hərbi qüdrətinin artırılması, insanların sağlamlığı, təhsilinin, mədəniyyətinin inkişafı sahəsində məqsədyönlü işlər aparılır. Bu işlərin aparılmasında qadınlarımızın əməyi az deyil. Qadınların əməyinə yüksək qiymət verən ümummilli liderimiz Heydər Əliyev Azərbaycan qadınının vəziyyətinin yaxşılaşması, onların sosial iqtisadi problemlərinin həlli, qadınların hüquqlarının qorunması ilə bağlı bir sıra fərman və sərəncam imzalamışdır. 1995-ci ildə Azərbaycan Respublikası BMT-nin “Qadınlara münasibətdə ayrıseçkiliyin bütün formalarının ləğv olunması” haqqında konvensiyaya qoşulmaqla öz üzərinə böyük öhdəliklər götürmüşdür.

Ümummilli liderimiz Heydər Əliyev siyasətinin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları ölkədə qadın siyasətinin davamı olaraq 6 fevral 2006-ci il tarxli fərmanı ilə “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması barədə” fərman imzaladı. Əvvəllər Qadın Problemləri üzrə Dövlət Komitəsi kimi fəaliyyət göstərən komitənin səlahiyyətləri genişləndirilərək ailə, qadın və uşaq problemləri sahəsini əhatə etdi. Komitənin səlahiyyətlərinin genişləndirilməsi bununla da qalmadı, respublikanın 11 rayonunda komitənin uşaq və ailələrə dəstək mərkəzləri yaradıldı ki, bu da qadınların öz problemləri, ailə problemləri və digər istəkləri ilə əlaqədar müraciət etmək üçün yerlərdə şərait yaratdı.

Bu gün respublikanın 11 rayonunda komitənin uşaq və ailələrə dəstək mərkəzləri fəaliyyət göstərir. Onlardan biri də Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzidir. 2011-ci ildən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdinə fəaliyyət göstərən Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları rayonun kənd və qəsəbələrində olur, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamların, Milli Məclisin qəbul etdiyi qanun və qərarların yerinə yetirilməsi, bu sahədə insanların maarifləndirilməsini təşkil edir, sağlamlıq imkanları məhdud uşaqların qeydiyyata alınmasına, onlara hərtərəfli mənəvi dəstək olmağa, qadın zorakılığına, erkən evliliklərə qarşı mübarizə aparır, onların problemlərinin aradan qaldırılmasına çalışır. Bu günkü günə mərkəzimizdə qeydiyyata alınmış 78 ailədə tam imkansız və sağlamlıq imkanları məhdud olan uşaqlar vardır. Mərkəzin əməkdaşları rayonun kənd və qəsəbələrində yaşayan 350-yə yaxın ailədə olmuş onların problemlərinin aradan qaldırılmasına yardım etmişlər.

Hazırda rayonun Zarağan kəndində “Şəhərcik” deyilən ərazisində yerləşən mərkəzimiz yerlərdə “Qadın zorakılığına son”, “Zərərli vərdişlər”, “Narkomaniya və onun fəsadları”, “Erkən nikahlar və onların fəsadları”, “Sağlam həyat tərzi və reproduktiv sağlamlıq”, “Uşaq hüquqları” və digər məsələlərlə bağlı mütəmadi tədbirlər keçirmiş, problemli ailələrin problemlərinin aradan qaldırılması üçün bizə müraciət edənlərə lazımi köməklik etmişik. Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi olaraq sağlamlıq imkanları məhdud və imkansız ailələrin uşaqları üçün mərkəzimizdə bir sıra məşğələlər fəaliyyət göstərmiş, xüsusi qayğılı uşaqların bu məşğələlərə davamiyyəti təmin edilmişdir. Xüsusi qayğılı uşaqlar üçün bayram tədbirləri təşkil edlimişdir.

Hazırda mərkəzimizin fəaliyyətindən 88 nəfər uşaq bəhrələnir. Bu uşaqlar mərkəzin müxtəlif xidmətlərindən—aktiv terapiyadan, əl işləri, xüsusi qayğılı uşaqlar üçün fərdi təhsil, kompüter, psixoloji konsultasiya və digər xidmətlərdən bəhrələnirlər.

Biz çalışacağıq ki, 2015-ci ildə də öz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirək, bizə ümid bəsləyənlərin köməyinə çataq. Əlbəttə, problemlərimiz də var. Ancaq bu gün mən bu problemlərdən danışmaq istəmirəm.

Rayonumuzda hər il 8 Mart Beynəlxalq Qadınlar Bayramı rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin tapşırığı ilə yüksək səviyyədə təşkil olunur. Qadınlarımız belə yüksək səviyyədə keçirilən bayramda iştirak edir, məmnunluq hissi keçirir, bunun üçün rəhbərliyə öz təşəkkürlərini bildirirlər.

Mən bu gün qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar Bayramı münasibətilə həyatın bəzəyi, evlərin yaraşığı, dodaqların gülüşü balaların sevinci olan bütün Azərbaycan qadınlarını ürəkdən təbrik edir, onlara uzun ömür, can sağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Daimi səadət, sevinc, firavanlıq, xoşbəxtlik nəsibiniz olsun. Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi olaraq hər bir qadının bütün arzu və istəklərinin həyata keçməsini arzulayırıq. Əlbəttə, hər bir qadının öz dünyası var, bu dünya qadının özünü xoşbəxt hiss etdiyi yerdir. Qadının xoşbəxt olduğu yeri—dünyası ailəsi və sevdiklərinin yanıdır.

**Rəna MAHMUDOVA,**
**Qəbələ UADM-ın direktoru.**

# Qadınlarımızla fəxr edirik

«8 mart» bəşəriyyətin ülvi bir varlığı olan qadına bəslənilən məhəbbət və ehtiramı parlaq ifadə edən bayram kimi dünyada geniş qeyd olunur. İnsan cəmiyyətinin mədəni inkişaf səviyyəsi və yüksəlişi hər bir cəmiyyətdə qadına, anaya olan münasibət ilə sıx bağlıdır. Qadınlar bəşəriyyətin taleyüklü problemlərinin həllinə həmişə öz töhfələrini vermiş və bu gun də müasir dünyanın inkişaf istiqamətlərinin müəyyən edilməsində böyük xidmətlər göstərirlər.

Azərbaycan qadınları tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynamışlar. Azərbaycanın müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarının adları çoxəsirlik zəngin tariximizin səhifəsində qızıl hərflərlə yazılmışdır.

Tomris ana (Müdiya hökmdarı), Saraxatun (diplomat) Nigar xanım, Həcər Məhsəti Gəncəvi, Natəvan, M. Dilbazi, N. Rəfibəyli ictimai siyasi, mədəni həyatımızda əsrlərlə tanınan Azərbaycan qadınlarıdır.

Bu gün fəxrlə deyə bilərik ki, dövlətin və hökumətimizin qayğısı nəticəsində azərbaycanlı qadınlar beynəlxalq arenaya çıxır, nüfuzlu forumlarda iştirak edir, dövlətimizi və millətimizi şərəflə və layiqincə təmsil edirlər. Bu gün belə qadınlarımıza Mehriban Əliyevanı, Leyla Əliyevanı, Bahar Muradovanı və başqa bir çoxlarını buna misal göstərmək olar. Artıq ölkəmizdə Azərbaycan qadının böyük intellektual potensialı vardır.

Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu indiki dövrdə Azərbaycan qadını gəncləri vətənə sədaqət ruhunda tərbiyə edərək onları xalqa, cəmiyyətə layiqli övlad yetişdirmək kimi müqəddəs vəzifənin öhdəsindən şərəflə gəlirlər.

Əziz qadınlar! Sizlərə bayramınız mübarək olsun deyir, şərəfimiz, ləyaqətimiz və qeyrətimiz sandığımız Azərbaycan qadınına eşq olsun deyirik.

**Qəbələ Rayon**
**Ağsaqqallar Şurası.**

# Çiçəkdən, güldən də gözəldir qadın

158 il bundan əvvəl hər cür məşəqqətlərə, müsibətlərə sinə gərərək öz azadlığını bəyan edən qadınların zərif, kövrək bir bayramı var. Bu gün hər il mart ayının 8-də təntənə ilə qeyd edilir.

Baharın başlanğıcıyla bir ərəfəyə düşən bu bayramı sanki təbiət qadınlara gözəl hədiyyə etmişdir. Çünki dünyanın ən incə, pak, müqəddəs varlığı olan qadının özü də bahar təravətlidir.

Qadın dünyanın nümunəvi varlığıdır. Güclü od üzərində şiddətli qaynayan su məhəbbət qədər qaynar ola bilməz. Qadına hörmət Yaradanımıza hörmət kimidir. Çünki hər ikisi yaradır. Məhəbbətinə doğrudürüst cavab almayan qadın hərarətsiz Günəş, yağışsız bulud kimidir...

Qadınlar haqqında Məhəmməd Peyğəmbər, dünyanın dahiləri, yazıçılar çox dərin fikirlər söyləyiblər. Bunlardan bir neçəsini qeyd edirik.

—Oğlanla qız arasında fərq qoyulsaydı mən qızı seçərdim.

**Məhəmməd Peyğəmbər.**

—Qadınlara yaxşılıq insanı cəhənnəm odundan qoruyan pərdə kimidir.

**Məhəmməd Peyğəmbər.**

—Qadın bəşəriyyətə ana və ilk tərbiyəçidir.

**Həsən bəy Zərdabi.**

—Ey qadının
məmbəyi nəzakətsən,
Sən təcəssüm
edən lətafətsən”.

**Məhəmməd Hadi.**

—Sənin əzəmətini təsəvvür edə biləcək hələ heç bir kitab yazılmayıb.

**Məmməd Səid Ordubadi.**

—Mən onun sayəsində
boya-başa çatmışam,
Anam məni yaratmış,
mən aləm yaratmışam.

**Məhəmmədhüseyn Şəhriyar.**

* * *

—Millətin gələcəyi anaların əlindədir.

**O. Balzak.**

—Anaya baxıb qızı, ataya baxıb oğlu tanıyırlar.

**Ərəb atalar sözü.**

—Yaxşı qız yaxşı da ana olur.

**Əfqan atalar sözü.**

—Ərin zinətidir qadın isməti.

**Nizami Gəncəvi.**

—Dünyada qadınların ən yaxşısı nənədir.

**Atalar sözü.**

—Ana haqqı tanrı haqqıdır.

**Kitabi-Dədə Qorqud.**

# Elanlar

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 may 1998-ci il tarixdə 09 saylı qərarla Həmzəlli kənd sakini Məmmədov Sahib Abbas oğlunun və ailə üzvlərinin adına verilmiş JN-134 F nömrəli (kodu 40605018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixdə 10 saylı qərarla Məmmədağalı kənd sakini Kərimov Dəmir Nüsrəddin oğlunun və ailə üzvlərinin adına verilmiş JN-073 B nömrəli (kodu 40603048) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr itdiyi** üçün etibarsız sayılır

*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Məsul növbətçi:*
*N. R. Atakişiyev.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.